# “Nəfəs” teleekranda yayıldı

**2023-cü ilin noyabr ayında keçirilən 14-cü Bakı Beynəlxalq Qısa Film Festivalında ən yaxşı rejissor nominasiyası üzrə qalib olan “Nəfəs” filmi fevralın 26-da Xocalı faciəsinin 33-cü ildönümü münasibətilə ilk dəfə olaraq “Mədəniyyət” kanalında yayımlanıb.**

Ekran həlli Elmar Bayramova məxsus əsərin ssenari müəllifi Ülviyyə Heydərova, prodüsserləri Elçin Ağazadə və Könül Kəngərli, bəstəkarı isə Vüqar Camalzadədir. Çəkilişləri İsmayıllıda aparılan film “Old stone pictures” və “Black Garden Company” şirkətlərinin Azərbaycan Diasporuna Dəstək Fondu ilə birgə əməkdaşlığı çərçivəsində ərsəyə gəlib. Xatırladaq ki, azərbaycanlı rejissorun sənət uğuru olan ekran əsəri 80 ölkədən 600 film arasından seçilib.

İnsanların ağrılarını-acılarını, erməni faşistlərinin törətdiyi vəhşiliyi 30 dəqiqəyə sığdırmaq heç də asan deyil. Bu film Azərbaycanın, Qarabağ müharibəsi dövründə xalqımıza qarşi törədilən qətliamın, başsız qalan ailələrin, gözüyaşlı körpələrin göylərə ucalan fəryadı, vicdanları oyadan haqq səsidir.



“Nəfəs” real hadisələrin motivlərinə əsaslanır. Birinci Qarabağ müharibəsində əsir düşənlərə həsr olunmuş bu əsər 1994-cü ildə erməni qaniçənlərin əsirinə çevrilmiş və həyatının 2 ili ağır işgəncələrdə keçmiş 18 yaşlı Bəxtiyar Nağıyevin həyat hekayəsindən bəhs edir. Filmdə müharibənin dəhşətlərini yaşamış, ağır psixoloji travma almış insanların sonrakı dövrdə cəmiyyətə yenidən uyğunlaşmasının çətinlikləri bədii ekranda həllini tapıb.

***Fidan SALMAN***
***XQ***

Xalq qəzeti .- 2025.- 28 fevral (№ 45).- S.10.